# Vətən həsrətli şeirlərin ovqatı ilə




**Respublikamızdan kənarda yazıb-yaradan soydaşlarımızdan biri də Rizvan Cəfərlidir. O, uzun müddətdir ki, Moskvada yaşayır, ixtisasca hüquqşünasdır. Gənclik illərindən ölkə mətbuatında maraqlı şeirləri ilə çıxış edir. Bu günlərdə "Azərkitab" kitab təbliğatı mərkəzində şairin "Qürbətdən gələn səs" ("Elm və Təhsil" nəşr.) adlı növbəti kitabının təqdimatı olmuşdur.**

Tədbirdə şair-tərcüməçi Hafiz Rüstəm, BDU-nun müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Elza Mollayeva, həkim-şairə Rəfiqə Qasımqızı, şair Ramiz Qusarçaylı, Tarix Vüsallı, Ayaz Arabaçı və başqaları çıxış edərək Rizvan Cəfərli yaradıcılığını müxtəlif istiqamətlərdən təhlil etdilər, Vətən həsrətli şeirlərindən nümunələr deyərək bu şeirləri bir şəxsin yox, Azərbaycandan uzaqlarda yaşayan yüzlərlə, minlərlə gəncin hisləri, duyğuları kimi dəyərləndirdilər. Ziyalılar adında çıxış edən Rəşid Mahmudov, AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərli, hüquqşünas Eldar Əsgərov və Rafiq Ramazanov bildirdilər ki, Rizvan Cəfərlinin yaradıcılığından qırmızı xətt kimi keçən Qarabağ dərdimiz, Qarabağ ağrımız "Qürbətdən gələn səs"də müdrik bir coşqunluqla tərənnüm olunur. Bu şeirlərdə gənclərimizi şairlə birlikdə cəbhə bölgələrində, düşmən tapdağı altında olan torpaqlarımızın işğalçılardan azad edilməsində mübarizədə görürük. Gənclərimizə vətənpərvərlik hissinin aşılanmasında bu poetik yanaşma bizi çox sevindirir. "Qürbətdən gələn səs"in işığında saz ustası Aşıq Qələndərin ifasında şairin şeirlərinə bəstələnmiş mahnılar səsləndirildi. Sonda müəllif tədbir iştirakçılarına minnətdarlığını bildirməklə, yazarlara göstərilən diqqət və qayğıya görə respublika rəhbərliyinə təşəkkürünü bildirdi.

**Salman HƏSƏNOV,**
**Bakı şəhəri**

Ədalət 2019.- 2 noyabr.- S.6.